İstəyirik ki, artıq müharibə səhifəsi bağlansın

Ancaq görürük ki, Ermənistanın həm özü, həm onun yeni havadarları bunu istəmirlər. Onlar revanşist fikirlərlə yaşayırlar və Ermənistan faktiki olaraq bölgə üçün bir təhdid mənbəyidir.

Məğlub edilmiş Ermənistan. Dünyada nağıllar, fərziyyələr, xəyallar kimi tanınan, Qərbi Azərbaycan torpaqlarında çar Rusiyası tərəfindən yaradılan qondarma dövlət. Özündən güclünün qarşısında quyruq bulayan, gücsüzün qarşısında "aslan"a dönən, girəvədə və pusquda dayanan təhlükəli düşmən. Həyat göstərir ki, erməniyə etibar etmək, onun sözünə inanmaq olmaz, onun çirkli mahiyyəti dinc insanları, uşaqları, qocaları qətlə yetirmək, faşizmi dirçəltməkdir. İyirmi birinci əsrin faşizmi Ermənistandır, terrorçu dövlətdir, körpə qatilidir, işğalçıdır, havadarlarına və erməni lobbisinə arxalanaraq illərlə qonşu kimi yaşadıqları Azərbaycana qarşı xəyanət etdilər. 30 il ərzində işğalda saxladıqları Ağdam, Füzuli, Cəbrayıl şəhərlərini yer üzündən silən, yüzlərlə kəndi xarabalığa çevirən, qatı nifrət ruhunda azərbaycanlıların evlərini, tarixi, mədəni və dini abidələrini dağıdaraq məhv edən, minlərlə dinc azərbaycanlıları, qadınları, qocaları, uşaqları qətlə yetirən, Xocalıda soyqırımı törədən, əsir və girovlara dözülməz işgəncələr verən Ermənistan rejiminin iç üzü belə qara ləkələrlə doludur.

Son hadisələr və törətdikləri xain təxribat onu göstərir ki, Ermənistan iqtidarı İkinci Qarabağ müharibəsində aldıqları ağır zərbələri unudaraq revanşizmə, gərginlik yaratmağa bir daha cəhd edir. Ermənilər bölgədəki gərginliyə Fransanı, İranı və Avropa İttifaqını cəlb etmək üçün bütün qüvvələrini səfərbər ediblər. Paşinyan hökuməti reallığı qəbul etmədiyini və hələ də xülyalardan ayılmadığını göstərir. Əgər şərti sərhəddə hərbi əməliyyatlar intensiv xarakter alsa, sözsüz ki, Ermənistanı quyunun dibinə salan cəhənnəm gözləyir. Əslində, Paşinyan iqtidarını dingildədən Avropa İttifaqının Ermənistana yolladığı müşahidə missiyasıdır. Haqlı sual yaranır, bəs Ermənistanın 30 illik işğalı zamanı həmin Avropa İttifaqı harada idi?! Əcnəbi və yerli siyasi şərhçilərin fikrinə görə, Ermənistanın hərbi-siyasi hakimiyyəti bütün imkanları ilə vaxtı uzatmağa çalışır. Baş nazir Nikol Paşinyan və komandası regional reallığın dəyişəcəyinə ümid edir, hansısa "çətirlərə" ümid bəsləyir. Amma bu, tamamilə absurddur. Çünki Vətən müharibəsindəki qələbədən sonra Cənubi Qafqazda yeni reallıqları diktə edən siyasi aktor məhz rəsmi Bakıdır. Bu adi həqiqəti başa düşmək istəməyən Ermənistan hakimiyyətinin son zamanlar ritorikanı sərtləşdirməsi, irəli sürülən bütün təşəbbüsləri bloklamaq cəhdi, Azərbaycana qarşı əsassız iddialar irəli sürməsi bir daha onu göstərir ki, Avropa İttifaqının missiyasının Ermənistana gəlməsi onları cəsarətləndirib. Yəni onlara qorxma deyən olduğu üçün Ermənistanın siyasi və hərbi rəhbərliyi daha iddialı bəyanatlar verməyə başlayıb. Sülh danışıqları və Zəngəzur dəhlizinin açılması ilə bağlı üzərinə götürdüyü öhdəlikləri unudaraq təxribatlar törətməyə, bölgədə gərginliyi artırmağa, heç olmasa, bir neçə metr torpaq qaytarmaq iddiasına ümid bəsləyən düşmən ölkə odla oynadığının fərqində deyil və haylar heç də uzaq olmayan tarixin ibrət dərsindən nəticə çıxarmayıblar. Ermənistan növbəti təxribatına və cinayətinə görə mütləq cavab verəcək, özü də ağır şəkildə və ağrılı cavab verəcək, Vətən müharibəsi başa çatandan sonra Azərbaycan kommunikasiyaların açılması, ərazi bütövlüyünün tanınması ilə bağlı Ermənistana beş müddəadan ibarət sülh təklifi edib. Məğlub Ermənistan hakimiyyətinin dörd ildir ki, sülh sazişini bağlamağa sadəcə cəsarəti çatmır. Azərbaycan isə humanist, prinsipial və qərarlı mövqeyində dayanır. Cənubi Qafqazda baş verən müsbət dəyişikliklər, Azərbaycanla Gürcüstan arasında sıx əməkdaşlıq fonunda Ermənistan küncə sıxılmış, xəstə ideyaların qaranlığına bürünmüş, beynəlxalq layihələrdən təcrid edilmiş, rəvayət və xülyalarla yaşayan bir ölkəyə çevrilmiş, ən əsası isə başqalarına yalvarmaq və kömək ummaq hərisliyinə tutulmuşdur. Uzun illər Rusiyanın himayəsinə sığınan, humanitar yardımlarla bəslənən, Birinci Qarabağ müharibəsində Xankəndidəki 366-cı rus alayının hərbi texnikalarından və canlı qüvvəsindən istifadə edərək torpaqlarımızı işğal edən Ermənistan iqtidarında və erməni cəmiyyətində indi öz ağalarına qarşı aqressivlik müşahidə edilir, Rusiyanın əleyhinə bəyanatlar səsləndirir, rus dilinə və mədəniyyətinə qarşı etinasızlıq göstərir, bir sözlə, gücündən və çörəyindən gen-bol istifadə etdikləri, "getmə gözümdən, gedərəm özümdən" dedikləri qardaşa arxa çevirir, onu cidd-cəhdlə günahlandırırlar. Bu, əsl erməni riyakarlığı və erməni xislətidir.

Ötən il keçirilən Münxen Təhlükəsizlik Konfransında "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclas əsl həqiqəti və reallığı ortaya qoydu. Bütün dünya şahid oldu ki, Azərbaycan apardığı qlobal siyasət, tərəfdaşlıq, ordu quruculuğu sayəsində Avropanın pafosla dediyi dağları cəsarətlə və böyük hünərlə aşıb, işğal altındakı torpaqlarını azad edib, ərazi bütövlüyünü təmin edərək ermənilərin xarabalığa çevirdiyi ərazilərdə quruculuğa başlayıb, ölkənin iqtisadiyyatı dünyadakı baş verən təhdidlərə baxmayaraq, davamlı inkişaf edir. Kasıb, yardım və ianələrin hesabına ayaq üstə durmağa çalışan ölkənin vətəndaşları hesab edir ki, Ermənistan həmin dağları aşmaq gücündə deyil. Çox doğrudur. Xəyal və fərziyyələr girdabında boğulan, qonşuları ilə sülh şəraitində yaşamaq istəməyən ölkə Cənubi Qafqazda təhlükəsizliyin qurulmasına ciddi maneə törədir. Üçtərəfli Bəyannaməyə görə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçıran, Qərblə Rusiyanın arasında girinc vəziyyətə düşən, müstəqil siyasət apara bilməyən, başqaları tərəfindən idarə edilən Ermənistan rəhbərliyi özündə cəsarət tapa bilmir ki, sülh danışıqlarında qəti mövqe sərgiləsin. Mümkün deyil, çünki Ermənistan müstəqilliyini çoxdan itirib, həmin ölkəni başqa dövlətlər idarə edirlər. Erməni politoloq Levon Zurabyan daha dəqiq və pafosla ifadə edərək yazır ki, həmin iclasdakı (Münxen Təhlükəsizlik Konfransı) bütün səhnə milli ləyaqətimizin, sevgimizin edamı idi. Əliyev Ermənistanı və onun baş nazirini dünya qarşısında "sındırırdı". Münxen konfransında Paşinyanla Əliyev arasında gedən debatı dəhşətlə izlədim. Erməni liderlərinin Levon Ter-Petrosyandan Nikol Paşinyana qədər təkamülünə baxsanız, Ermənistanın növbəti liderinin pitekantrop olacağı düşüncəsindən qurtulmaq çətindir. Biz heç vaxt dövlətimizi təmsil edən adamın pafoslu və sanballı obrazını görməmişik. Politoloq sonra yazır ki, Əliyev Ermənistanı Azərbaycan ərazilərini işğal etməkdə, BMT Təhlükəsizlik Şurasının qətnamələrini pozmaqda ittiham edəndə Paşinyan susdu. Paşinyan susmaqla faktiki olaraq Əliyevin ittihamlarını və Ermənistanın günahını qəbul etdi. Əliyev "Dağlıq Qarabağ" anlayışının olmadığını deyəndə, Paşinyan qeyri-adekvat ingilis dilində nəsə izah etməyə çalışdı. Bəlli oldu ki, döyüş meydanında itirmədiyimiz nəsə qalıbsa, onu da zəif diplomatiya nəticəsində itirəcəyik. Paşinyan eyni cür ingiliscə və ya rusca, eyni cahil və dar məntiqlə dünya mötəbərləri ilə görüşlərdə Ermənistanın maraqlarını müdafiə edir. Təəssüf ki, bu gün Ermənistanda hökm sürən informasiya sahəsi quldur və manipulyasiya vəziyyətindədir. Xalqımızın əksəriyyətinin bütün bunlardan heç bir xəbəri olmayacaq. Ermənilər heç bir təhlükə olmadığı halda həmişə azərbaycanlıların yaşayışını təhlükə altına salıblar, onların torpaqlarını işğal edərək insanları faciələr yaşamağa məcbur ediblər. Özlərini isə dünyaya "məzlum", "incidilmiş", "haqları əlindən alınmış xalq" kimi tanıdıblar.

Ermənilər tarixin səhnəsində çox belə oyun qurublar. Türk tarixçi Mehmet Kanar yazırdı ki, hələ 1916-cı ildə İtaliyanın Torino şəhərində italyan dilində nəşr edilən "Armeniya" məcmuəsində ermənilər haqsız olduqları halda özlərini haqlı təqdim edərək yazırdılar ki, onlar İslam okeanı içində dağılmış, onun dalğaları içərisində çalxalanırlar. Uzaq qaldıqları Qərb dünyasına şikayət səslərini eşitdirə bilmirlər. Bir sözlə, ağa qara demək, təcavüzkar, işğalçı, beynəlxalq qanunlara hörmətsizlik, saxtakarlıq və başqa iyrənc təbliğat üsullarını həyata keçirməyə cəhd edən ermənilər unudurlar ki, onların bu köhnə fəndləri daha keçərli deyil. Ermənilərin yalanları beynəlxalq səviyyədə puça çıxarılır, erməni təbliğat maşınına qarşı əməli fəaliyyət nümayiş etdirilir. Öz xalqını bəlalara düçar edən, onun faciəsi üstündə çirkin məqsədlər həyata keçirməyə çalışan "erməni qəhrəman"lar burulğana düşdüklərinin fərqində deyillər. Göründüyü kimi, Azərbaycanın barışıq, qonşuluq və birgəyaşayış təklifini Ermənistan və onun havadarları düzgün qiymətlənirə bilmirlər, düşdükləri və düçar olduqları dərin bir uçurumun içərisində çabalayır, fürsət güdürlər. Əbəs yerə, ermənilik birdəfəlik uduzub, xam xəyallar puç olub, "böyük Ermənistan" nağılları iflasa uğrayıb, lobbiçi və diasporçu haylar uzun illər ərzində itirdikləri pulların yanğısı ilə alışıb yanırlar. Yalanı və iftiranı dövlət siyasətində başa keçirən Ermənistan acı məğlubiyyətdən nəticə çıxarmaq əvəzinə öz xalqını yenidən fəlakətə sürükləyir, revanşist qüvvələrə meydan verir, gizli şəkildə və hiyləgərliklə, həm də himayədarlarının təhriki ilə yeni müharibəyə hazırlaşır. Əgər Ermənistanın həqiqətən də Azərbaycana qarşı öz ərazi iddialarından, revanşist siyasətindən əl çəkmək niyyəti varsa, bu kimi təcavüzkar ritorikadan imtina etməlidir. Ermənistan tərəfi bölgədə sülhdə maraqlıdırsa irəli sürülən şərtləri yerinə yetirməlidir, əks halda nələr baş verəcəyini özləri yaxşı bilirlər. Ora-bura əl atmaqdansa haylar yaxşı olar ki, qalib Azərbaycanın irəli sürdüyü şərtləri qəbul edərək gələcək həyatlarını təmin etsinlər. Əslində, bu fikirləri sağlam düşüncəli ermənilər də dərindən dərk edirlər. Ermənistanın Avropa İttifaqına üzvlük məsələsi illərlə uzanacaq, sonda ölkənin ittifaqa üzv olmayacağı mənasız prosesə çevrilə bilər. Bunu Ermənistan parlamentinin deputatı Artur Xaçaturyan deyib. O qeyd edib ki, son bir neçə ayda Ermənistan Aİ-yə üzv olmaq üçün addımlar atır, amma qarşı tərəfdən bununla bağlı müvafiq hərəkətlərin olmaması müəyyən suallar yaradır: "Tutaq ki, üzvlüklə bağlı referendum keçirdilər, xalqın 95 faizi razılığını bildirdi, bəs Avropa İttifaqından bir siqnal almışıqmı ki, siz referendum keçirin, biz qapılarımızı sizə açacağıq. Mən Avropa İttifaqından Ermənistanın yaxın gələcəkdə təşkilata üzv ola biləcəyinə dair heç bir eyham görməmişəm ki, bu qanunu qəbul etsək, Ermənistan Avropa ailəsinə üzv olacaq. Rusiyanın buna cavabı da başqa bir həqiqəti ortaya qoyur, ruslar deyirlər ki, siz eyni vaxtda həm Avrasiya İqtisadi Birliyi, həm də başqa bir ittifaqa üzv ola bilməzsiniz. Yəni eyni anda iki stulda oturmaq mümkün deyil. Rusiya Paşinyanın demək istəmədiyini deyir, bu, Moskvadan uzaqlaşmaq məsələsidir, amma bilmirəm hara". Xatırladaq ki, hökumət ötən həftə "Ermənistan Respublikasının Avropa İttifaqına qoşulması prosesinin başlanması haqqında" qanun layihəsini təsdiqləyib. Yazıq görkəm, qüsurlu məntiq, kasıb Ermənistan, çıxış yolu olmayan haylar çoxlu suallar qarşısında qalıblar. Ağa çox, diktə edən çox, vəd verən nə qədər istəsən, ancaq, sadə erməni ailəsində böyüyən erməni gənclərinin münaqişələrdə həlak olaraq qoyulduqları tabuta yaxın duran yoxdur. Gec deyil, ermənilər düşünsələr uduzmazlar, yox əgər yenə revanşist fikirlər səsləndirsələr onlara Azərbaycan Prezidenti İlham Əliyevin sözlərini xatırlatmaq lazımdır: "Mən artıq bildirdim ki, İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri Ermənistanda çox ciddi qəbul edilməlidir. Ermənistanda gedən silahlanma prosesi əlbəttə ki, Cənubi Qafqaz üçün yeni təhdid amilidir. Mən artıq bunu demişəm, bir daha demək istəyirəm ki, biz, sadəcə olaraq, müşahidəçi kimi buna baxıb heç nə etməyə bilmərik. Mən bunu, eyni zamanda Ermənistan rəhbərliyinə də dəfələrlə bildirmişdim ki, bu, yeni təhlükə yarada bilər. Eyni zamanda bu gün sanki Ermənistanın arxasında duran kimi görünən və onları Azərbaycana qarşı yeni provokasiyalara, təxribatlara təhrik edənlər, çox güman ki, axıra qədər onların arxasında durmayacaqlar. Necə ki, 2020-ci ildə və ondan sonrakı dövrdə dura bilməmişlər. Ona görə yox ki, durmaq istəmirlər, sadəcə olaraq, Azərbaycan bu imkanları verməyəcək. Ona görə Azərbaycanın dövlət büdcəsinin əhəmiyyətli hissəsi hərbi və təhlükəsizlik məsələlərinə xərclənəcək. Mən bunu artıq bir dəfə demişəm: biz Qarabağın və Şərqi Zəngəzurun bərpasına 4 milyard, hərbi və təhlükəsizlik məsələlərinin həlli üçün 8,4 milyard manat vəsait xərcləyirik. Bu, tam fərqli ola bilərdi. Çünki Ermənistanın silahlanma yarışı, bizim də maliyyə resurslarımızı əsas məsələlərdən başqa hərbi məsələlərə cəlb etməyə məcbur edir. Mən onu da bildirmişdim ki, Ermənistan silahlanma yarışında bizimlə rəqabət apara bilməz. Ancaq biz burada bir məsələni də nəzərə almalıyıq. Ermənistana bu silahlar ya pulsuz verilir, ya da ki, kredit şəklində. O kreditlər də müəyyən dövrdən sonra silinir. Eyni zamanda Avropa İttifaqının dırnaqarası sülh fondundan. Dırnaqarası, çünki sülh fondu, əslində, sülh məqsədləri üçün istifadə olunmalıdır. Onların sülh fondu isə silahlanmaya istiqamətləndirilir".

Salman ALIOĞLU,
"Respublika".